Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan gənclərinin dövlət qurumlarının işinə yaxından cəlb olunması tapşırığına əsasən, 9 iyun 2009-cu il tarixli 828-IIIQ nömrəli "Könüllü fəaliyyət haqqında" Azərbaycan Republikasının Qanununu rəhbər tutaraq 1 iyun 2019-cu il tarixindən etibarən Xarici İşlər Nazirliyinin nəzdində "Diplomatiya könüllüləri" qrupu fəaliyyət göstərir.

"Diplomatiya könüllüləri" aidiyyəti üzrə Azərbaycan Respublikasının müxtəlif ali təhsil ocaqlarında təhsil alan tələbələr, habelə sahə üzrə məzunlardan ibarətdir.

➢ ***"Diplomatiya könüllüləri"nin fəaliyyətinin əsas məqsədləri:***

- Azərbaycanın xarici siyasəti, beynəlxalq münasibətlər sistemində tutduğu yer və Azərbaycanın önəminin gənclər tərəfindən düzgün mənimsənilməsinə və təbliğinə nail olmaq;
- Təşkilatçılıq, dəqiqlik, məsuliyyətlilik, iş bacarığını öyrətmək və onların mütəxəssis kimi formalaşmasına tövhə vermək;
- Gənclərin spesifik istiqamətlər üzrə fəaliyyətə cəlb olunaraq öz potensiallarını dərk etməsinə və onların gələcək üçün təhsil və karyera planlamasına yardım etmək;
- Sahə üzrə praktiki biliklərin qazanılması məqsədi ilə könüllüləri Xarici İşlər Nazirliyinin təşkil etdiyi və təşkilində iştirak etdiyi tədbirlərə həm iştirakçı, həm də təşkilatçı olaraq yaxından cəlb etmək.

**828-IIIQ nömrəli "Könüllü fəaliyyət haqqında" Qanun**

- ***“Diplomatiya könüllüləri”nin üzvləri və prinsipləri:***

Könüllülük fəaliyyəti Azərbaycan Republikasının qanunvericiliyi ilə qadağan edilməyən, işlərin görülməsi və ya xidmətlərin göstərilməsi ilə bağlı ictimai faydalı və gəlirsiz fəaliyyət hesab olunur.

“Diplomatiya könüllüləri” 18-25 yaş arası, Azərbaycan Respublikasının müxtəlif ali təhsil ocaqlarının “Beynəlxalq münasibətlər” və digər əlaqəli ixtisaslarında təhsil alan gənclərdən ibarət olmaqla, vətənpərvər, Azərbaycan dövlətçiliyinə və dövlətçilik ənənələrinə sadiq, müvafiq sahə üzrə məlumatlı, savadlı və aktiv gəncləri vahid platformada birləşdirir.

Könüllülük fəaliyyətini uğurla başa çatdırmış və öz öhdəliklərini yerinə yetirmiş könüllülərə fəaliyyətin sonunda iştirakla bağlı Xarici İşlər Nazirliyi tərəfindən arayış təqdim edilir, xüsusi fərqlənən tələbələr isə sertifikatla təltif olunurlar.

- ***Könüllülük fəaliyyətinə cəlb olunan tələbələr üçün tələblər:***

  - Sahə üzrə biliklər;
  - Xarici dil bilikləri;
  - Operativlik;
  - İntizam;
  - Təşəbbüskarlıq.

- ***Əlaqə: Nigar Eyvazzadə***

***azdiplomacyvolunteers@gmail.com***

DİPLOMATİYA KÖNÜLLÜLƏRİ